**UOT 316.47**
**https://doi.org/10.59849/2710-0820.2024.1.294**

**Rəna Məmmədova**
*Bakı Dövlət Universiteti. Sosial iş kafedrası.*
*fəl.ü.f.d., dosent*
*rena_mammadova@yahoo.com*
*Azərbaycan*

# EKSTRABİLİTİ VƏ İNKLÜZİV MƏDƏNİYYƏT

***Açar sözlər:*** *əlilliyi olan şəxs, inklüziya, ekstrabiliti, WHITE CANE NGO, ekstrabiliti mədəniyyəti, Azərbaycanda əlillərin vəziyyəti, inklüziv cəmiyyətin prinsipləri*

İnklüziya - canlı olmaq və dünyanı olduğu
kimi qəbul etmək sənətidir.
Urbanist Aleksey Onatsko.
(Sankt-Peterburqdakı "Sadə şeylər" inklüziv seminarlarından
"İnklüzivlik niyə lazımdır?" layihəsindən sitat)

## Giriş

Dünyada 1 milyarddan çox insan və ya dünya əhalisinin təxminən 15 faizi bu və ya digər formada əlilliyə malikdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada əlilliyi olan şəxslərin sayı 1 milyardı ötüb. Bundan başqa, əlilliyi olan hər beş nəfərdən təxminən biri inkişaf etməkdə olan ölkələrdə yaşayır. Bu arada, 15 və daha yuxarı yaşda olan 190 milyon insan işləməkdə əhəmiyyətli çətinliklər yaşayır və tez-tez tibbi xidmətə ehtiyac duyur [4]. Əlillər insan hüquqlarının pozulmasına məruz qalırlar. Əlillər fiziki qüsurları ilə mübarizə aparmaqla yanaşı, onlara qarşı insan hüquqlarının pozulmasına qarşı da mübarizə aparmağa məcbur olurlar. Bütün dünyada əlilliyi olan insanların zorakılıq, istismar, qərəz və sui-istifadə kimi çoxsaylı pozuntularla üzləşməsi çox yayğındır. Əlilliyi olan insanlar həmçinin tibbi və ya sağlamlıqla bağlı xidmətlərə çıxış zamanı qərəz və ayrı-seçkiliklə üzləşə bilərlər ki, bu da keyfiyyətsiz xidmətlərlə nəticələnir. Ümumdünya Səhiyyə Təşkilatının diqqəti əlilliyi olan insanların səhiyyə sistemlərinin bütün səviyyələrində və əsasən ilkin səhiyyə səviyyəsində inteqrasiyasının təşviq edilməsinin təcili ehtiyacına yönəldir. Əlillərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. BMT-nin məlumatına görə, bütün əlillərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Əlilliyi olan insanların təxminən 46 faizi 65 və daha yuxarı yaşdadır. Təqdim olunan məlumatlara əsasən, hər beş qadından biri həyatının hansısa mərhələsində əlilliyin bu və ya digər formasını yaşaya bilər, uşaqlar arasında isə bu göstəricinin 10-da 1 olacağı proqnozlaşdırılır. Əlillərin zorakılığa məruz qalma ehtimalının 4-10 dəfə çox olduğu güman edilir [4].

## Əlilliyi olan insanlara tibbi və sosial yanaşmalar

Əlilliyi müəyyən etmək üçün tibbi və sosial yanaşmalar mövcuddur. Birincisi, əlillərin xüsusi müdafiəyə ehtiyacı olduğunu müəyyən edir. Sosial yanaşma cəmiyyətin münasibətini nəzərə alır. Sosial yanaşma və inklüziv mühit güman edir ki, ilkin olaraq inkişafda əlilliyi olan insanlar "problemin daşıyıcısı" deyillər və heç bir xüsusi yanaşma tələb olunmur. Əksinə, insanların müxtəlif tələbatlarına cavab vermədiyi üçün sosial sistemin natamamlığı səbəbindən maneələr və məhdudiyyətlər yaranır [6].

Getdikcə daha tez-tez "INKLÜZİYA", "İNKLÜZİVLİK" sözlərini eşidirik, hamı üçün açıq və mehriban bir cəmiyyət haqqında oxuyuruq. İnklüzivliyi fiziki inkişafda çətinlik çəkən, o cümlədən əlilliyi olan və ya psixi xüsusiyyətləri olan insanların cəmiyyətin aktiv həyatına real daxil edilməsi prosesi kimi təqdim etmək olar. İnklüziya (İnclusion-daxiletmə) – bütün vətəndaşların, ilk növbədə sağlamlıq imkanları

məhdud olan bütün şəxslərin cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. İnklüziv cəmiyyətdə bütün insanlar özünün dəyərli olduğunu hiss edir, fərdi fərqlərə hörmət olunduğunu və əsas ehtiyaclarının ödənildiyini görür. Cəmiyyət heç kimi təcrid etmir və məhdudlaşdırmır. İnklüzivlik əlilliyi olan şəxslərdə özünəinamı artırır və digər əlilliyi olmayan şəxslərlə bərabərhüquqlu olmasını təmin edir.

**"Ekstrabiliti" anlayışı haqqında**

Əlillik anlayışını qabiliyyət çatışmazlığı ideyası ilə əlaqələndirmək olar. Açıq əmək bazarında əlilliyi olan şəxslərin aşağı rəqabət qabiliyyətini və cəmiyyətdə inklüziv mədəniyyətin yaradılmasında əlillərin aşağı fəallığını qeyd etmək olar. İnklüziv mədəniyyətin formalaşması daha çox ekstrabiliti fəlsəfəsi sayəsində mümkün olmuşdur. Onun əsasında innovativ inklüziv sosial və biznes layihələri yaradılır və təkmilləşdirilir. Ekstrabiliti uğurlu sosiallaşma prosesində məhdudiyyətlər səbəbindən inkişaf edən qabiliyyət və bacarıqlardır. Ekstrabilitinin inkişafı daxili ləyaqət hissi, qarşılıqlı hörmət və həyatda böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübənin dəyərinə əsaslanır. Belə qabiliyyətləri reallaşdıran əlillər əvvəllər dərin psixoloji böhran keçirmişlər, lakin qalib gəlmişlər, bu onlara əvvəllər gizlədilən resursları üzə çıxarmağa imkan vermişdir [8].

"Extrability" (ingilis dilindən extra - əlavə, yüksək keyfiyyət, yüksək səviyyə, ability- qabiliyyət) müvəffəqiyyətli sosiallaşma prosesində məhdudiyyətlər sayəsində inkişaf edən qabiliyyətlərdir [7]. "Ekstrabiliti" anlayışı 2013-cü ildə Rusiya Federasiyasında istifadə edilməyə başladı. "Ekstrabiliti" anlayışı ictimai xadim Oleq Kolpaşçikov tərəfindən istifadəyə verilmişdir. Oleq Kolpaşçikov biznesmen, biznesməşqçi, ictimai təşkilatın rəhbəridir. O, həm də xokkeylə ciddi məşğul idi. Bir gün idman kompleksində saat mexanizmi olan partlayıcı qurğu işə düşdü (bu o zamanlar az qala adi hal idi). Xoşbəxtlikdən Kolpaşçikov sağ qaldı, lakin görmə qabiliyyətini itirdi. Onda onun 20 yaşı var idi [6].

Ekstrabiliti məhdud sağlamlıq imkanları olan, həyata uyğunlaşma ilə əlaqədar əlilliyi olan bir şəxsdə inkişaf edən əlavə qabiliyyətlərdir. Bu qabiliyyətlərin özəlliyi ondan ibarətdir ki, adi bir insanın həyatında onlara tələbat yoxdur, lakin digər tərəfdən ekstrabiliti sayəsində əlilliyi olan şəxslərin həyatı keyfiyyətcə dəyişdirilə bilər. Ekstrabiliti əlilliyi olan insanlar üçün rəqabət üstünlükləri kimi çıxış edən unikal qabiliyyət və bacarıqlardır. Peşəkar fəaliyyətdə ekstrabilitinin istifadəsi və inkişafı əlilliyi olan insanlara açıq bazarda rəqabətli yer tutmağa imkan verir [5]. Ekstrabiliti fəlsəfəsini inkişaf etdirmək üçün Rusiyada və dünyanın digər ölkələrində konfranslar, konqreslər, tədqiqatlar və müsabiqələr keçirilir [8]. Ekstrabiliti - Rusiya Federasiyasının Yekaterinburq şəhərində yaradılan "Ağ əsa" ictimai hərəkatının (WHITE CANE NGO) fəlsəfəsi, fəaliyyət prinsipi və həyat qaydasıdır. "Ağ əsa" adlı qeyri-kommersiya təşkilatı görmə qüsuru olan insanlar tərəfindən təsis edilib. Müxtəlif sosial qrupların nümayəndələri arasında inklüziv qarşılıqlı əlaqə sahəsində əvvəllər gizlədilən istedad və qabiliyyətlərdən istifadə edən yeni sosial layihələr və peşələr yaradılır [5]. Cəmiyyətdə inklüziv mədəniyyətin yaradılması məqsədilə 2018-2019-cu illərdə "Ağ əsa" qeyri-kommersiya təşkilatı və tərəfdaşları üç qitədə, 20 ölkədə və Rusiya Federasiyasının 20-dən çox regionunda inklüziv sosial-mədəni tədbirlər və kommersiya layihələri həyata keçiriblər. Tədbirlərdə 10 mindən çox insan, o cümlədən 2500-dən çox əlilliyi olan şəxs iştirak edib [8].

Ekstrabiliti - taleyin dəyişdirilməsinin yeni ənənəsidir, həyatın keyfiyyət səviyyəsinə keçiddir. Travma və ciddi məhdudiyyətlər yeni imkanların reallaşdırılması və istifadəsi üçün təkandır.

**Azərbaycanda sağlamlıq imkanları məhdud olan insanlara aid həyata keçirilən tədbirlər**

Azərbaycan Respublikasında əhaliyə göstərilən tibbi-sosial ekspertiza xidməti, orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin və müddətinin müəyyən edilməsi məqsədilə əlilliyin qiymətləndirilməsi, əlilliyi olan şəxslərin sosial müdafiə tədbirlərinə ehtiyaclarının müəyyən edilməsi tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən həyata keçirilir.

Şəxsin əlilliyi aşağıdakı səbəblərdən birinə əsasən müəyyən edilir:

1. ümumi səbəblərdən: ümumi xəstəlik, istehsalat zədəsi, peşə xəstəliyi, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar, hərbi xidmət dövrü ilə

əlaqədar, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, terror hadisəsi ilə əlaqədar;

2. xüsusi səbəblərdən: Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar, Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.

Orqanizmin funksiyalarının pozulması faizinin, səbəbinin və müddətinin müəyyən edilməsi məqsədilə əlilliyin qiymətləndirilməsi TSEK tərəfindən Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əlillik" altsistemi vasitəsilə aparılır.

Orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri 31-35-dək olduqda 35 faiz müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri üzrə qiymətləndirilməsi 5 faiz aralığı ilə aparılır.

Anadangəlmə xəstəlikdən və ya çatışmazlıqdan, yaxud sonradan qazanılmış xəstəlikdən və ya zədədən, habelə sonradan qazanılmış xəstəlik və ya zədə ilə bağlı çatışmazlıqdan irəli gələn orqanizmin funksiyalarının pozulmasının əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə halı olduqda, hər bir hal ayrılıqda qiymətləndirilir və orqanizmin funksiyalarının pozulması faizi müəyyənləşdirilir. Bu zaman orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri eyni olduqda, yekun göstərici 10 faiz artırılmaqla, fərqli olduqda ən yüksək olan göstərici 10 faiz artırılmaqla, ümumilikdə isə 100 faizdən çox olmamaqla müəyyən edilir. Hər hansı bir hal üzrə müddətsiz əlillik müəyyən edilməsinə əsas olduqda, əlillik müddətsiz müəyyən edilir.

İstehsalat zədəsi və ya peşə xəstəliyi ilə bağlı əmək qabiliyyətinin itirilməsi 30 faizdən yuxarı təyin olunduğu hallarda, onun müddəti əlilliyinin müddətinə uyğun olaraq müəyyənləşdirilir. Peşə xəstəliyi və istehsalat zədəsi istisna olmaqla, əlilliyin müəyyən edilməsinə əsas verən bir neçə hal üzrə orqanizmin funksiyalarının pozulmasının fərqli faizləri müəyyənləşdirildiyi hallarda, daha üstün sosial müdafiə təminatları nəzərdə tutulan əlillik səbəbi və orqanizmin funksiyalarının pozulmasının ən yüksək faizi müəyyən edilir.

BP və onun tərafdaşlarının Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıqda Bakı şəhərində həyata keçirdiyi "Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması" proqramına ərizə qəbulu elan edib. Proqram British Council tərəfindən icra olunub [1]. Layihənin əsas məqsədi Bakı şəhərində yaşayan əlilliyi olan şəxslərin məşğulluq bacarıqlarını inkişaf etdirmək və onların iş perspektivlərini artırmaq olub. Layihədə iştirak etmək üçün Bakı şəhərində yaşayan 100 nəfər əlilliyi olan şəxs seçilərək ingilis dili, kompüter bacarıqları və sosial bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlərə cəlb ediliblər. Layihə çərçivəsində iştirakçılara həm də psixoloji dəstəyin göstərilməsi və məşğulluq üzrə müvafiq məsləhətlərin verilməsi də nəzərdə tutulmuşdur. Proqram iştirakçılarının gələcək iş perspektivlərinin artırılması məqsədilə layihə çərçivəsində müvafiq istiqamətdə fəaliyyət göstərən qərarverici tərəflər və biznes müəssisələri tərəfdaş qismində layihəyə cəlb edilib.

Proqramda iştirak etmək üçün tələb olunan şərtlər bunlar olub: Əlilliyi olan şəxslər (I, II, III əlillilik qrupu), Yaş həddi: 18-40, Yaşayış yeri: Bakı şəhəri, Tələb olunan minimal təhsil səviyyəsi: orta təhsil, Azərbaycan dili (səlis yazmaq və danışmaq), Öyrənmək və işləmək üçün yüksək motivasiyaya malik olmaq, Liderlik potensialı olan və ictimai həyatda fəal olan şəxslərə üstünlük verilib, Baza kompüter (zəruri olub) və minimal ingilis dili bacarıqları (arzuolunan olub), Dövlət Məşğulluq Mərkəzində qeydiyyat/Məşğulluq Mərkəzinin işsizlik statusu haqqında arayışı (arzuolunan olub).

Proqrama müraciət etmək üçün tələb olunan sənədlərin siyahısı aşağıdakı olub:

Doldurulmuş ərizə forması, CV forması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi" elektron xidmətindən çıxarılmış əlillik barədə elektron arayış [1].

Layihə aşağıdakı mərhələlərdən ibarət olub:

Seçim mərhələsi.

Ərizələrin qəbulu: Ərizələrin qəbulu British Council tərəfindən həyata keçirilib.

Qəbul olunan ərizələrə bu layihə çərçivəsində təyin edilmiş, British Council və layihədə iştirak edən digər tərəflərin nümayəndələrinin də daxil olduğu Seçki Komitəsi baxıb və seçim meyarlarına uyğun olaraq seçilmiş namizədlər müsahibələrə dəvət olunublar. Müsahibələrdən uğurla keçən şəxslər proqramda iştirak etmək hüququ əldə ediblər. Layihədə iştirak etmək üçün 100 nəfər şəxs seçilib. Seçilmiş şəxslərin ilkin mərhələdə bilik və bacarıqları müvafiq ekspert tərəfindən qiymətləndirilib. İştirakçılar qiymətləndirilmə əsasında səviyyələr üzrə qruplara bölünərək təyin olunmuş fəaliyyət cədvəlinə uyğun olaraq 2018-ci il ərzində təlimlərə cəlb ediliblər. Təlimlər Azərbaycan dilində keçirilib.

Təlimlər aşağıdakı istiqamətlərdə həyata keçirilib:

1.İngilis dili üzrə təlimlər.

2.Kompüter üzrə təlimlər (ilkin bacarıqlar, veb dizayn, proqramlaşdırma).

3.Sosial bacarıqların inkişaf etdirilməsi üzrə təlimlər.

Proqram çərçivəsində iştirakçılar üçün psixoloji konsultasiyaların keçirilməsi də nəzərdə tutulub. Təlimlər 2018-ci il ərzində 9 ay müddətində keçirilib [1].

2021-ci ilin May ayının 11-də Şəki şəhər 12 nömrəli tam orta məktəbdə “Sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyası” adlı onlayn tədbir keçirilib [3]. Tədbirdə Təhsil Şöbəsinin əməkdaşları, məktəbin direktoru, müəllimlər və valdeynlər iştirak ediblər. Tədbirdə çıxış edənlər ölkəmizdə sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqət və qayğıdan danışıblar. Çıxışı zamanı Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görüldüyünü, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblərin əsaslı təmir edildiyini və ya yenidən qurulduğunu diqqətə çatdırılıb. Həmçininin sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın uşaqların cəmiyyətə inteqrasiya olunması və təhsil almaları üçün əlverişli mühit yaratdığını da qeyd edib [3].

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində görülmüş işlərə dair iclas keçirilib. Bu barədə qurumun ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən Xalq Qəzetinə verilən xəbərdə bildirilir. Qeyd edilir ki, iclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sosial sahədə aparılan islahatlar çərçivəsində əlilliyin qiymətləndirilməsi və əlillərə tibbi-sosial reabilitasiya xidmətlərinin göstərilməsi sahələrində də işlərin uğurla icra edildiyi vurğulanıb [2]. Bundan başqa, əlillərin hüquqlarının təminatı sahəsində atılan addımlar barədə məlumat verilib. Əlilliyin qiymətləndirilməsi zamanı əsas götürülən yeni meyarların sayı 2022-ci ilin 1 iyuluna qədərki cəmi 128 meyarla müqayisədə 5 dəfəyə yaxın artırılaraq 616-ya çatdırılıb. Yeni meyarlar əlilliyin qiymətləndirilməsi sisteminin mütərəqqi dünya təcrübəsinə uyğun təkmilləşdirilməsi ilə yanaşı, vətəndaş məmnunluğuna yönəlik bir sıra yeni yanaşmaların tətbiqinə imkan verib [2]. Bildirilib ki, Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla 2023-cü ildə 50 min 700 nəfərə əlillik təyinatı aparılıb. Dövlət başçısının tapşırığına əsasən son beş ildə Nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Ölkə üzrə fəaliyyət göstərən 15 reabilitasiya müəssisəsi vasitəsi ilə 87 min 700 şəxsə reabilitasiya xidməti göstərilib. Agentlik tərəfindən 10 min 500 şəxsə 91 min 400 reabilitasiya vasitəsi verilib [2]. Qeyd olunub ki, 2024-cü il iyul ayının 1-dən həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı müvafiq qərarların yekun tibbi müayinə əsasında verilməsi istiqamətində görülən işlərin icrasına başlanılacaq. Əlillərə göstərilən elektron xidmətlərin sayının artırılması, mövcud xidmət keyfiyyətinin yük-

səldilməsi istiqamətində səylərin gücləndiriləcəyi vurğulanıb [2].

**Əlilliyi olan yaradıcı şəxslər səhnədə**

İnklüziv mədəniyyətin formalaşdırılmasında inklüziv teatrın rolu haqqında informasiyanı araşdırmaq məqsədəuyğun hesab edilə bilər. İnklüziv teatr müasir teatrın müxtəlif əlilliyi olan aktyorları, məsələn, serebral iflic və autizmli, eşitmə və görmə qabiliyyəti zəif olan aktyorları tamaşalara cəlb edən istiqamətidir. Teatrda aktyorlar öz potensiallarını reallaşdırmaq, maraqlı layihələr yaratmaq və əməyinin qarşılığını almaq üçün gözəl imkan əldə edirlər. Mütəxəssislər Moskva Mimika və Jest Teatrını ilk inklüziv teatr hesab edirlər. 1962-ci ildə (başqa bir versiyaya görə - 1963-cü ildə) açıldı və dünyanın ilk eşitmə bacarığı zəif olan aktyorlar üçün stasionar teatrı oldu. 1920-ci illərdə Moskvada iki lal-kar klubu fəaliyyət göstərirdi və onlardan biri həvəskar teatr tamaşaları ilə məşhurlaşdı.1960-cı illərə qədər teatr inkişaf etdi və 1963-cü ilə qədər daimi oldu: truppa dar binalardan 700 yerlik tamaşa zalı olan geniş binaya köçdü. Başqa ölkələrdə də analoji proseslər eyni illərdə baş verib. Məsələn, ABŞ-da 1967-ci ildə Milli Karlar Teatrı açıldı, burada tamaşalar işarət və danışıq dilində eyni vaxtda səhnələşdirildi. 1974-cü ildə Londonda məzəli adı olan Chickenshed adlı məşhur uşaq teatrı açıldı. Chickenshed ingilis dilindən "Toyuq yuvası" kimi tərcümə edildi. İlk başlayanda təşkilatçılar Meri Uord və Co Kollinz müstəqil bir məkanda işləmək istəyirdilər və yer axtarırdılar. Sonra layihənin pərəstişkarı Ledi Elizabet Binq öz torpağında boş toyuq hini istifadə etməyi təklif etdi. Teatrda oxuyan uşaqlar deyirdilər: "Biz toyuq hininə gedirik". "Toyuq hini" incəsənətin hər kəs üçün əlçatan olması ideyasını təbliğ etməyə çalışırdı. Hər kəs komandaya qəbul edildi və 1980-ci illərin əvvəllərində teatrda serebral iflicli bir oğlan oynayırdı. Yeniyetmələr soruşdular: "Əgər biz hamıya açıqıqsa, onda niyə bizdə onun kimisi yoxdur?" Bu an teatr üçün dönüş nöqtəsi oldu və o vaxtdan bəri böyük bir inklüziv layihəyə çevrildi.

XX əsrin sonlarında inklüziv teatrlar inkişaf etməkdə davam edirdi. Belə ki, 1990-cı ildə Rusiyada əlil teatr mütəxəssislərinin təhsil aldığı xüsusi ali təhsil müəssisəsi - Dövlət İxtisaslaşdırılmış İncəsənət İnstitutu (bu gün - Rusiya Dövlət İxtisaslaşdırılmış Rəssamlıq Akademiyası) açıldı. 1999-cu ildə "Proteatr" Ümumrusiya xüsusi teatrlar festivalı meydana çıxdı. 2000-ci ildə Moskvada Daun sindromlu aktyorlar truppası ilə Sadə Düşüncəlilər Teatrı öz qapılarını açdı. Və 2017-ci ildə Kar-korlar üçün Əlaqə Fondunun bazasında Yaradıcı Layihələr üçün İnklüziv Mərkəzi yarandı.

Azərbaycanın və eləcə də Qafqazın əlilliyi olan və olmayan aktyorlardan ibarət ilk teatrı olan ƏSA Teatrı 3 sentyabr 2016-cı ildə rejissor və sosial novator Nihad Qulamzadə tərəfindən yaradılmışdır. Yaranması ilə bağlı ictimaiyyətə elan verildikdən dərhal sonra bir çoxları ƏSA Teatrının Azərbaycan incəsənətində inqilabi təşəbbüs olduğunu və yaxud son illər Azərbaycanda baş verən ən müsbət hadisə olduğunu bildiriblər. Müstəqil şəkildə fəaliyyət göstərən teatr heç bir qurumdan və şəxsdən maliyyələşmədən ilk addımlarını atmışdır. Teatrın fəaliyyətə başlaması üçün ilkin maliyyə dəstəyini teatrın hazırkı baş meneceri Nicat Qulam təmin etmişdir.

ƏSA adı bir çoxlarının istifadə etdiyi əl ağacı mənasını daşıyır, eyni zamanda əngəlsiz, sərhədsiz, azad sözlərini özündə birləşdirir.

**Nəticə**

Ümumdünya Əlillik İnstitutunun (Berkley, ABŞ) baş mütəxəssisi Pol Hippolitus açıq əmək bazarında məşğulluq səviyyəsini əlillərin reabilitasiyası üçün əsas meyarlardan biri hesab edir [8].

İnklüziv iqtisadiyyat gizli istedad və qabiliyyətlərin inkişaf etdirilməsi mədəniyyətidir; bu, hər kəsi cəlb etmək mədəniyyətidir. Bu o deməkdir ki, insan öz peşəsini məmnuniyyətlə dəyişməyi öyrənməlidir.

Ümumilikdə, yekun olaraq qeyd olunmalıdır ki, inklüziv cəmiyyətin prinsipləri aşağıdakılardı:

1.Şəxsin dəyəri onun qabiliyyət və uğurundan asılı deyil.

2.Hər bir şəxs hiss etmək və düşünməyə qabildir.

3.Hər bir şəxsin ünsiyyətdə olmaq və eşidilmək hüququ var.

4.Bütün şəxslərin bir-birinə ehtiyacı var.

5.Bütün şəxslərin cəmiyyətin dəstəyinə ehtiyacı var.

6.Hər bir şəxsin həyatı rəngarəng və müxtəlifyönümlü olmalıdır.

Əlilliyi olan şəxslər dünyada ən böyük azlıqdır. Bununla yanaşı, bütün dünyada əlillərə yardım göstərən təşkilatların fəaliyyəti artır. Yardımın həcmi artır, lakin eyni zamanda, yardımın keyfiyyəti və əlilliyi olan insanların inklüziv qarşılıqlı fəaliyyətə cəlb edilməsi məsələləri aktuallaşır. Cəmiyyət əlilliyi olan şəxslərin cəmiyyətə real töhfələrinə əsaslanan inklüziv mədəniyyət yaratmalıdır.

Sonda, vurğulamaq lazımdır ki, əlilliyi olan şəxs özü sağlam insandan 10 dəfə müsbət olmalıdır.

## Ədəbiyyat


1. Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması proqramı. https://eduonline.az/2018/02/20/əlilliyi-olan-səxslərin-məsgulluq-qabiliyyətlərinin-artirilmasi-proqrami/
2. Əlillik təyinatlarında yeni meyarlar. https://www.xalqqazeti.az/az/sosial-heyat/161378-elillik-teyinatlarinda-yeni-meyarlar
3. "Sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyası" adlı onlayn tədbir keçirilib. https://shaki.edu.gov.az/az/page/13960/65036
4. ÜST: Dünyada əlillərin sayı 1 milyardı ötüb. https://avropa.info/post/384288
5. АНО "БЕЛАЯ ТРОСТЬ" (г. Екатеринбург). https://extrability.org
6. Слепой уралец Олег Колпащиков: Инвалидам никто ничего не должен. https://rg.ru/2016/01/28/slepye.html
7. Философия Экстрабилити. https://extrability.org/about/extrability/
8. ЭКСТРАБИЛИТИ КАК ФЕНОМЕН ИНКЛЮЗИВНОЙ КУЛЬТУРЫ: Формирование инклюзивной культуры в организациях. Уральский федеральный университет имени первого Президента России Б. Н. Ельцина. Сборник материалов II Всероссийской научно-практической конференции с международным участием. (Екатеринбург, 12–13 декабря 2019 года). 307 с.


## Резюме

**Рена Мамедова**

### Экстрабилити и инклюзивная культура

В статье представлена информация о положении людей с ограниченными возможностями, статистические показатели, связанные с этими людьми. Исследованы особенности медицинского и социального подходов к инвалидности. Была проанализирована конкретная информация о понятиях инклюзии и инклюзивности. Объяснена сущность философии экстрабилити, подробно проанализирована история и содержание понятия «экстрабилити». В статье нашли свое отражение утверждения о том, что инклюзивная экономика – это культура развития скрытых талантов и способностей. Рассмотрены философия и деятельность общественного движения «Белая трость» (WHITE CANE NGO) Российской Федерации. Проанализирована информация о мерах и проектах, реализуемых в направлении повышения трудовых возможностей лиц с ограниченными возможностями в Азербайджанской Республике. Представлена информация о принципах инклюзивного общества.

***Ключевые слова:*** *человек с ограниченными возможностями, инклюзия, экстрабилити, WHITE CANE NGO, культура экстрабилити, положение людей с ограниченными возможностями в Азербайджане, принципы инклюзивного общества*

**Summary**

**Rana Mammadova**

**Extrability and inclusive culture**

The article presents information about the situation of people with disabilities, statistical indicators of such people. The characteristics of medical and social approaches to disability were investigated. Specific information about the concepts of inclusion and inclusiveness was analyzed. The essence of the philosophy of extrability has been explained, the history and content of the concept of "extrability " has been analyzed in detail. The article reflects the remarks that the inclusive economy is a culture of developing hidden talents and abilities. The philosophy and activities of the public movement "White Cane" (WHITE CANE NGO) of the Russian Federation were reviewed. Information about measures and projects implemented in the direction of increasing the employment abilities of persons with disabilities in the Republic of Azerbaijan was analyzed. Information about the principles of an inclusive society has been presented.

***Keywords:*** *a person with a disability, inclusion, extrability, WHITE CANE NGO, extrability culture, the situation of disabled people in Azerbaijan, the principles of an inclusive society*